*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 iyul 2019-cu il № 52 (2369) Qiymәti 30 qəpik

# "Ölkəmizin hərbi qüdrəti güclənir"

*Dövlətin gücü dünyəvi siyasətlə müəyyənləşən və onun nəticəsi olan iqtisadi potensialla bağlıdır. Zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. Səriştəsizlik, separatizm cəhdləri, vətəndaş qarşıdurması yaratma niyyəti Azərbaycanın dövlətçiliyini təhlükəylə üzləşdirmişdi. Xalqın təkidiylə böyük tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanın dövlətçiliyini xilas etdi.*

Böyük tarixi şəxsiyyətlər tarixin axarını xalqının mənafeyinə istiqamətləndirə bilir; qısa müddətdə dünyanın nüfuzlu dövlətləriylə imzalanan ikitərəfli, çoxtərəfli müqavilələr Azərbaycanın iqtisadi inkişafının başlanğıcı oldu və ordu quruculuğunda da əsaslı dönüşə etibarlı zəmin yaratdı, qısa müddətdə ordu quruculuğunda müqayisəyəgəlməz islahatlar həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamıyla yerli özünümüdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin edildi ki, bunlar da ordunun nizami ordu kimi formalaşmasının başlanğıcı oldu. Azərbaycançılığıyla həmişə fəxr edən böyük tarixi şəxsiyyət Heydər Əliyev döyüş hazırlığı artırılan ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının da yüksəldilməsini təmin etdi. Qələbəylə nəticələnən Horadiz əməliyyatı təsdiqlədi ki, nizami ordu kimi təzəlikcə formalaşan Azərbaycan Ordusu torpaqları işğaldan azad etməyə qadirdir...

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.*



Ulu Öndərin siyasi kursu ordu quruculuğunda da uğurla davam etdirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordu quruculuğunu məxsusi qayğı göstərməklə diqqətdə saxlayır. Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar məhz bu diqqətin, qayğının təzahürüdür. Ən müasir texnikalarla, qurğularla təchiz edilən ordunun şəxsi heyəti indi yüksək döyüş hazırlığına malikdir. 2016-cı ilin aprelində Azərbaycan Ordusu qısa müddətdə əhəmiyyətli qələbələr qazandı, Lələtəpə, Bayraqtəpə kimi mühüm əhəmiyyətli yüksəkliklər azad edildi. Bu döyüş, qazanılan bu qələbə Azərbaycan Ordusunun qüdrətinin səviyyəsini göstərir. Dünya ictimaiyyəti gördü və əmin oldu ki, bu ordu torpaqlarını işğaldan azad etməyə qadirdir. Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar da məhz bu əminlik səviyyəsində izlənildi...

Azərbaycan Ordusunun döyüş hazırlığı müntəzəm olaraq artırılır. Bu hazırlığın səviyyəsi öz təsdiqini genişmiqyaslı təlimlərdə tapır. Hərbi ekspertlər belə təlimləri həm də şəxsi heyətin mənəvi-psixoloji hazırlığını tamamlama baxımından qiymətləndirirlər.

Yeni hərbi hissələrin tikilməsi, əsaslı təmir edilməsi şəxsi heyət üçün ən yüksək şərait yaradılması da orduya, ordu quruculuğuna diqqət və qayğıdır. Bu qayğı həm döyüş hazırlığı üçün etibarlı zəmindir, həm də döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji dəyərə malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə hərbi qulluqçuların aylıq vəzifə maaşlarının artırılmasını təkcə hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması ilə məhdudlaşdırmaq düzgün olmazdı. Bu sərəncam həm də vətənpərvərlik tərbiyəsində böyük əhəmiyyətə malikdir. Orduya bu diqqət, bu qayğı yeniyetmələrin, gənclərin yüksək vətənpərvərlik ruhunda formalaşmasında vasitə olacaqdır.

Azərbaycan Ordusu müxtəlif beynəlxalq tədbirlərdə uğurla iştirak edir ki, bunların hər biri ayrılıqda da, vəhdətdə də ordunun döyüş qabiliyyətinin səviyyəsinin, eləcə də beynəlxalq nüfuzunun təsdiqidir. "Dəniz Kuboku", "TurAz Qartalı" kimi tədbirlər bu qəbildəndir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ön xətdə, səngərlərdə əsgər və zabitlərlə söhbətləri, tövsiyə və tapşırıqları mahiyyəti etibarilə ordu quruculuğu prosesinin tərkib hissələrindəndir. Bu etibar, bu inam, bu ehtiram Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu daha da yüksəldir.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Müdafiə naziri Anatoli Davidoviçin anasını ziyarət edib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Belarusda səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 2-də Minskdəki şəhər klinik xəstəxanasında müalicə alan Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviçin anası xanım Kima Davidoviçi ziyarət edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, K.Davidoviçin səhhəti və müalicə prosesi ilə maraqlanan Müdafiə naziri gül dəstəsi və Azərbaycandan gətirilən sovqatı ona təqdim edərək tezliklə sağalmasını arzulayıb. Xəstəxananın baş həkimi və müalicəni həyata keçirən tibbi personalı ilə görüşən Müdafiə naziri K.Davidoviçin müalicəsinə dair bütün xərclərin Azərbaycan tərəfinin öz üzərinə götürdüyünü bildirib.

Çay süfrəsi arxasında söhbət zamanı Milli Qəhrəman mayor A.Davidoviçin qəhrəmanlığının Azərbaycan və Belarus xalqları arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirdiyi, xatirəsinin isə hər iki ölkədə daim ehtiramla yad olunduğu bir daha qeyd edilib.

Qəhrəmanın anası onu ziyarət edərək səhhəti ilə maraqlandığına və oğlunun xatirəsinə göstərilən ehtirama görə Azərbaycanın Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də ölkəmizin Belarusdakı səfirliyi və hərbi attaşelik aparatının əməkdaşlarına minnətdarlığını ifadə edib.



# Müdafiə naziri Belarusda bir sıra tədbirlərdə iştirak edib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti Belarusun alman-faşist işğalçılarından azad olunmasının 75-ci ildönümü və Müstəqillik Günü münasibətilə iyulun 3-də Minskdə keçirilən hərbi paradı izləyib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov paradda fəxri qonaq qismində iştirak edib.

Azərbaycan Ordusunun bayraqdarlar heyəti ilə yanaşı, Belarus Respublikası və Rusiya Federasiyası Silahlı qüvvələrinin, həmçinin Çin Xalq Azadlıq Ordusunun parad heyətləri də Hərbi parada qatılıblar.

# Bu gün Azərbaycan ABŞ-ın etibarlı tərəfdaşı olmaqla yanaşı, Qafqazda və Mərkəzi Asiyada mühüm rol oynayır

*Bu gün Azərbaycan ABŞ-ın etibarlı tərəfdaşı olmaqla yanaşı, Qafqazda və Mərkəzi Asiyada mühüm rol oynayır. AZƏRTAC xəbər verir ki, bu fikirlər "Siyasi Psixologiya Məktəbi" çərçivəsində təşkil olunan görüşdə səsləndirilib.*

Siyasi Psixologiya Mərkəzində keçirilən tədbirdə Mərkəzin təsisçisi və direktoru, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta və digərləri çıxış edərək ABŞ-ın müttəfiqi olan Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramının iştirakçısı kimi Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyatlara dəstək verdiyini, burada sülhməramlı missiya ilə təmsil olunduğunu vurğulayıblar. Çıxışlarda Azərbaycan-ABŞ əməkdaşlığından, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən qlobal əhəmiyyətli layihələrdən ətraflı bəhs olunub.

Sonra gənclərin sualları cavablandırılıb.

# Azərbaycan KİV rəhbərlərinin Moskva şəhərinə səfəri davam edir

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir. Nümayəndə heyətinin səfər çərçivəsində Rusiyanın jurnalist təşkilatlarında və aparıcı KİV-lərin redaksiyalarında görüşləri keçirilir.

KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, növbəti görüş Ümumrusiya Dövlət Teleradio Şirkətində keçirilib. Heyət üzvlərini şirkətin Xarici əlaqələr departamentinin rəhbəri Pyotr Fyodorov və onun müavini Aleksey Perevoşçikov qarşılayıblar. KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya-Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb.

Pyotr Fyodorov Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Nümayəndə heyətinin üzvləri Rusiyanın Dövlət Teleradio Şirkətinin xəbərlərində Azərbaycan barədə informasiyaların və ayrı-ayrı proqramlarında ölkəmizlə bağlı müzakirələrin daha səmərəli olması üçün təkliflərini səsləndiriblər. Pyotr Fyodorov təklifləri qəbul etdiyini bildirib. Şirkətin təşkil etdiyi proqramlarda Azərbaycan tərəfindən ekspertlərə istinadlar edilməsi, onlarla əməkdaşlığın gücləndirilməsi barədə razılıq əldə olunub.

Nümayəndə heyətinin növbəti görüşü "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyində keçirilib. Azərbaycan KİV təmsilçiləri əvvəlcə agentliyin iş şəraiti ilə tanış olublar. Daha sonra agentliyin baş direktoru Dmitri Kiselyovla görüş keçirilib. D.Kiselyov Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda atdığı addımları diqqətlə müşahidə etdiklərini və bu yolda Prezident İlham Əliyevin yürütdüyü siyasəti təqdir etdiklərini diqqətə çatdırıb. O, Azərbaycanın regionda oynadığı rola, Rusiya ilə münasibətlərdə sərgilədiyi mövqeyə diqqət çəkərək, iki ölkənin münasibətlərinin daha da möhkəmlənməsində KİV-lərin də üzərinə mühüm məsuliyyət düşdüyünü, bu baxımdan Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini vurğulayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra pozulub

**5 iyul 2019-cu il.**

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub. Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Azərbaycan Müdafiə Nazirliyi Rusiya tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyquya başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Rusiya Hərbi Dəniz Donanmasının elmi-tədqiqat dərin sualtı gəmisində 14 sualtı-dənizçinin faciəvi şəkildə həlak olması barədə xəbər məni dərindən sarsıtdı.

Azərbaycan Ordusunun şəxsi heyəti adından və şəxsən öz adımdan həlak olanların ailələrinə, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Baş vermiş faciədən Sizinlə birlikdə kədərlənirik".

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun Xüsusi Əməliyyatlar Qərargahı komandanı ilə görüşüb



*İyulun 3-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı vitse-admiral Kolin Kilreynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Şimali Atlantika Alyansı arasında 25 illik dayanıqlı əməkdaşlıqdan danışan Baş Qərargah rəisi bu əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfəni qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edən vitse-admiral K.Kilreyn Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda sülhməramlılarımızın göstərdiyi peşəkarlığı yüksək qiymətləndirib.

Görüşdə tərəflər Azərbaycan və NATO-nun xüsusi təyinatlı qüvvələri arasında gələcək əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycan hərbçiləri Minskdə keçirilən hərbi paradda iştirak ediblər



Belarus Respublikasına səfər çərçivəsində Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti iyulun 3-də Minsk şəhərində keçirilən bu ölkənin alman-faşist işğalçılarından azad olunmasının 75-ci ildönümü və Müstəqillik Gününə həsr olunmuş hərbi paradı izləyib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, paradda fəxri qonaq qismində Müdafiə naziri general-polkovnik Zakir Həsənov iştirak edib.

Hərbi paradda Azərbaycan Ordusunun bayraqdarlar heyəti ilə yanaşı Belarus Respublikası və Rusiya Federasiyası silahlı qüvvələrinin, həmçinin Çin Xalq Azadlıq Ordusunun parad heyətləri də iştirak ediblər.

# Naxçıvan Qarnizonunda növbəti kursların başa çatması münasibəti ilə buraxılış mərasimi keçirilib

Naxçıvan Qarnizonunda qadın hərbi qulluqçuların da cəlb edildiyi növbəti kursların uğurla başa çatması münasibəti ilə buraxılış mərasimi keçirilib.

Buraxılış mərasimində Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra çıxış edənlər gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu məsuliyyətlə xidmət edirlər. İnanırıq ki, sertifikat almaq həyəcanı ilə sırada dayanan məzunlarımız da kurslarda əldə etdikləri nailiyyətlərlə kifayətlənməyəcək, bilik və bacarıqlarını daha da təkmilləşdirərək ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır olacaqlar."

Təbrik oxunduqdan sonra kursları müvafiq olaraq 1-ci, 2-ci



kurslarını bitirən gənclərə xidmətlərində uğurlar arzulayıblar.

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Teymur Eyyubov bildirib ki, Vətənə sədaqətli, peşəkar hərbçi kadrların hazırlanması məqsədilə Naxçıvan Qarnizonunda müxtəlif ixtisas hazırlığı kursları təşkil olunaraq keçirilir. "Bu kursları uğurla bitirən məzunlar da öz növbəsində ordu sıralarında şərəflə və

və 3-cü yerdə başa vuran məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Sonra nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Leytenant Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Bakıda Belarusun milli bayramı qeyd edilib

İyulun 2-də Belarusun Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirilib.

Səfir Gennadi Axramoviç bildirib ki, 1944-cü il iyulun 3-də Minskin faşist işğalçılarından azad edilməsi Belarusun Müstəqillik Günü kimi qeyd olunur. Belarus xalqı İkinci Dünya müharibəsi zamanı böyük itkilər yaşayıb. O, Belarusun işğaldan azad olunmasında iştirak edən ölkələrə minnətdarlığını bildirib.

Səfir, həmçinin Belarusun Azərbaycan ilə əlaqələrinə toxunub. Bildirib ki, Belarus Azərbaycan ilə əməkdaşlığa və dostluğa böyük önəm verir. İki ölkə arasında münasibətlər strateji xarakter daşıyır. Azərbaycan-Belarus əlaqələri qarşılıqlı səmərəli əməkdaşlıq üzərində qurulub.

Rəsmi qəbulda çıxış edən Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan Hökuməti adından Belarus xalqını təbrik edib.

Yaqub Eyyubov Azərbaycan-Belarus münasibətlərinin səmimi dostluğa əsaslandığını deyib. Bildirib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər, eləcə də iki ölkənin liderləri arasındakı şəxsi dostluq münasibətləri əlaqələrimizin inkişafına böyük töhfə verir. Azərbaycan və Belarusun qarşılıqlı etimada əsaslanan münasibətləri var. Belarus Prezidenti Aleksandr Lukaşenkonun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində prinsipial mövqeyini alqışlayırıq.

Baş nazirin birinci müavini vurğulayıb ki, Azərbaycan və Belarus arasında iqtisadiyyat, mədəniyyət, idman, səhiyyə, kənd təsərrüfatı, ticarət, maşınqayırma və digər sahələrdə əməkdaşlıq genişlənir.

Yaqub Eyyubov qeyd edib ki, Bakıdan sonra Avropa Oyunlarının estafetini Belarusun götürməsi çox əlamətdardır. Belarus Avropa Oyunlarını çox yüksək səviyyədə təşkil edi və öz qonaqpərvərliyini nümayiş etdirdi.

Qəbulda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, KİV nümayəndələri iştirak ediblər.

# Hərbi qulluqçuların ehtiyata buraxılmasına həsr olunmuş təntənəli mərasim keçirilib

*"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 31-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" ölkə Prezidentinin müvafiq sərəncamının icrası ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən, birlik, birləşmə və hərbi hissələrdə tədbirlər həyata keçirilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissələrdə xidmət müddəti başa çatmış əsgərlərin ehtiyata buraxılması ilə əlaqədar "Vətənə xidmətinə görə sağ ol!" adlı təntənəli yola salma mərasimi keçirilib.

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin ifası və Dövlət bayrağının mərasimə gətirilməsi ilə başlayıb.

Sonra xidmət müddəti başa çatmış hərbi qulluqçular üçrəngli bayrağımızı öpərək, silah, zirehli jilet və dəbilqələri rəmzi olaraq təntənəli surətdə döyüş növbətçiliyini qəbul edən gənc əsgər yoldaşlarına təqdim ediblər. Gənc əsgərlər bayrağı öpərək qəbul edib, Vətənə şərəflə xidmət edəcəklərinə, torpaqlarımızın keşiyində ayıqsayıq dayanacaqlarına söz veriblər.

Tədbirdə Müdafiə Nazirliyi rəhbərliyinin və birlik komandirinin ehtiyata buraxılan şəxsi heyətə təbriki çatdırılıb.

Mərasimdə çıxış edənlər ehtiyata buraxılan hərbi qulluqçuları təbrik edərək, döyüş növbətçiliyini yeni qəbul edən əsgərlərə gələcək xidmətlərində uğurlar və qələbə sevinci arzulayıblar.

Təntənəli mərasim xidmət müddətində fərqlənmiş və nailiyyətlər əldə etmiş hərbi qulluqçuların mükafatlandırılması, bayram naharı və konsert proqramı ilə başa çatıb.

# Azərbaycan Ali Hərbi Məktəbində milli-mənəvi dəyərlərimizin təbliği mövzusunda tədbir keçirildi

*Xalq öz milli ruhunu, mənəvi dəyərlərini, əxlaqi keyfiyyətlərini qoruyub yaşadanda, inkişaf etdirib gələcək nəsillərə çatdıranda böyük və qüdrətli olur. Ölkədə milli-mənəvi dəyərlərin təbliği vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.*



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Milli mənəvi dəyərlərin təbliği" mövzusunda tədbir keçirildi.

Tədbirdə dövlət komitəsinin nümayəndələri, hərbi məktəbin zabitləri, müəllimləri, kursantları və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri polkovnik Emin Səfərov ümummilli lider Heydər Əliyevin dediyi "Bizim hamımızın bir Vətəni var - bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır" kəlamı ilə açaraq zabit və kursantların hər zaman belə görüşlərə ehtiyacı olduğunu vurğuladı. Milli dəyərlərimizin qorunmasının və inkişafının Ulu Öndərin adı ilə bağlı olmasından, hazırda bu siyasətin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışdı.

"Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışaraq gənclərimizin bu prinsiplər əsasında tərbiyələndirilməsini vurğulayırdı: "...Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva bildirdi ki, hərbi hissələrdə, hərbi təhsil müəssisələrində xalqımıza xas milli-mənəvi dəyərlərin təbliği, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində silsilə tədbirlər keçirilir, müzakirələr aparılır. "Hər bir görüş bizdə qürur hissi doğurur. Çünki Azərbaycan Ordusu gündən-günə güclənir, müasirləşir. Maddi-texniki təchizatın təkmilləşməsi, bu istiqamətdə aparılan işlər, daxili nizam-intizam ordumuzu dünyanın ən güclü orduları sırasına çıxarır.

Hər bir xalqın milli dəyərləri onun özünütəsdiq imkanıdır. Malik olduğumuz milli dəyərlərin kökündə, ilk növbədə, Vətənə qırılmaz tellərlə bağlılıq, yüksək milli-mədəni irs və adət-ənənələr dayanır. Azərbaycan xalqı daim öz milli dəyərlərinə sadiq olub. Hətta tarixin müəyyən dövrlərində, müstəqilliyimizin mövcud olmadığı zamanda belə xalqımız milli dəyərlərini unutmayıb. Bu gün dünyada baş verən hadisələr bizim milli-mənəvi dəyərlərimizə daha çox diqqət etməyimizi göstərir."

Sədr müavini qeyd etdi ki, gənclərimizin milli, vətənpərvərlik ruhunda formalaşması üçün ən önəmli mənbə ailədir. "Ailə tarixən xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genefondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynamışdır. Azərbaycan xalqının tarixi köklərinə, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Hazırda Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən hesab olunur.

Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan dövlət ailə siyasəti bu gün də məqsədyönlü surətdə həyata keçirilir. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva həssas ailələrə xüsusi diqqət və qayğı ilə yanaşırlar. Dövlətimizin başçısı müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək demişdir: "Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır". Bizim də qarşımızda duran əsas məqsəd tarix boyu formalaşan, qoruyub saxladığımız ailə dəyərlərini gələcək nəsillərə ötürməkdir".

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun şöbə müdiri, professor Rəna Mirzəzadə çıxışında milli dəyərlərimizin qorunmasının, yaşadılmasının vacibliyindən söz açdı. "Milli dəyərlər bizim varlığımızın əsasıdır. Azərbaycan xalqı bu günədək məhz milli-mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib. Müasir dövrdə respublikamız bütün dünyada sərbəst şəkildə öz sözünü deyən və hörmət edilən dövlətdir. Bu, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində qazanılan uğurdur. Hazırda Azərbaycan Ordusu bölgənin ən qüdrətli ordusu kimi, işğal altındakı torpaqları istənilən vaxt düşməndən azad və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir".

Sonda tədbir iştirakçıları ilə müzakirələr aparıldı, fikirlər dinlənildi.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Spasskaya Başnya" XII Beynəlxalq Hərbi Musiqi festivalında ilk dəfə olaraq Azərbaycan Ordusu da təmsil olunacaq

Azərbaycanın milli musiqi sənəti zəngin və çoxəsrlik tarixə malikdir. Yüksək musiqi duyumu ilə dünya xalqları içərisində seçilən xalqımızın yaradıcılıq istedadını, bədii təfəkkürünü özündə əks etdirən milli musiqi nümunələrimiz, xalq mahnılarımız min illərin sınağından keçərək bu gün də dünyaya səs salır, sevilə-sevilə dinlənilir, könülləri oxşayır. Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, milli musiqimizin də inkişafı, dövlətçiliyimizin təşəkkülündə və tərəqqisində misilsiz rol oynamış, görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. İncəsənətə, yaradıcı şəxslərə hər zaman yüksək qiymət verən Ulu Öndərin dediyi "Bizim gözəl incəsənətimiz, mədəniyyətimiz, bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən, onun əsasında yaranan müasir, peşəkar musiqimiz var. Zənnimcə, peşəkar musiqimiz həm görkəmli bəstəkarlarımızın, həm də mahir ifaçılarımızın ən böyük nailiyyətidir" sözləri və Ümummilli Liderin 1995-ci il 18 sentyabr tarixli Fərmanına əsasən, görkəmli bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu gün - sentyabrın 18-nin hər il ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunması milli musiqimizə yüksək dəyər verdiyinin bariz nümasidir.

Ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu gün də uğurla davam etdirilir. "Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycan bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti Azərbaycanın musiqi mədəniyyəti ilə sıx bağlıdır", - deyən ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə Azərbaycan musiqi sənətinin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, maddi-texniki bazaları gücləndirilir.

Milli musiqimizə göstərilən bu yüksək qayğının nəticəsi olaraq bu gün respublikamızda musiqiyə böyük maraq və diqqət var. Hər sahədə olduğu kimi, Vətənimizin müdafiəsində duran hərbi qulluqçularımız arasında da dövlətimizin milli musiqi şərəfini yüksəldən hərbçilərimiz xidmət edirlər. Hərbçilərimizin musiqi fəaliyyəti ilə məşğul olmaları üçün ordumuzda yüksək şərait yaradılıb. Ordumuzun bölmələrində fəaliyyət göstərən hərbi orkestrlər, mahnı və rəqs ansamblları, yaradıcı kollektivlər hərbi ritualların keçirilməsində, şəxsi heyətin mədəni-asudə vaxtının tam səmərəli təşkilində mühüm rol oynayırlar. Keçirilən mədəni-kütləvi və hərbi vətənpərvərlik tədbirlərində hərbi orkestrlərin milli musiqi incilərimizi ustalıqla ifa etməsi tədbiri izləyənləri duyğulanmağa, vətənpərvərlik hisslərinin qabarmasına, düşmənə nifrətin artmasına kökləyir. Mahnı və Rəqs Ansamblarının çıxışları, hazırladıqları səhnəcikləri izləyənlərə könül xoşluğu aşılayır. Bu dünyanın bütün inkişaf etmiş ölkələrində eyni şəkildədir. Hər bir ölkədə hərbi orkestrlərin ifaları insanlara müsbət hisslər aşılayır, onları milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edir.

Xüsusi günlərdə, dövlət səviyyəli tədbirlərdə, bayramlarda, xüsusən də 26 İyun - Silahlı Qüvvələr Günündə şəhər meydanlarında təşkil etdikləri konsert proqramları ilə xalqın sevgisini və rəğbətini qazanan hərbi orkestrlərin yaradıcılığı, ustalığı, peşəkarlığı artıq beynəlxalq arenada öz sözünü deyəcək. Belə ki, cari ilin 23 avqust - 1 sentyabr tarixlərində Moskva şəhərinin Qırmızı Meydanında keçiriləcək "Spasskaya Başnya" XII Beynəlxalq Hərbi Musiqi festivalında ölkəmizi, Azərbaycan Ordusunu polkovnik Etibar Əliyevin rəhbərlik etdiyi yaradıcı heyət təmsil edəcək.



Qastrola gedəcək heyətin rəhbəri polkovnik Etibar Əliyevlə həmsöhbət olub, keçirilən festival və ölkəmizi təmsil edəcək kollektiv haqqında məlumat aldım.

- Tərkibi hər il dəyişilən, dünyanın ən böyük musiqi festivallarından olan "Spasskaya Başnya" Beynəlxalq Hərbi Musiqi festivalında bu il izləyicilər yenə də maraqlı kollektivlərin çıxışlarını izləyə biləcəklər. Bu festivalda ölkəmizi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestri təmsil edəcək. Məlumat üçün deyim ki, orkestr 1992-ci ilin fevralından fəaliyyət göstərir. Bu gün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əsas orkestrlərindən biri sayılır. Orkestrin hərbi dirijoru mayor Fariz Məmmədzadədir. Biz bu festivalda ilk dəfədir iştirak edirik. Festivalın keçirilmə şərtlərinə uyğun olaraq yarışda orkestrlə birlikdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının xoreoqrafiya qrupu da çıxış edərək öz rəqsləri və təmrinləri ilə orkestri müşayiət edəcək. Festival zamanı hər komandaya altı dəqiqə vaxt veriləcək. Bu vaxt ərzində orkestrlər təmsil etdikləri dövlətin xalqlarının və digər dünya xalqlarının mahnı və marşlarını ifa edəcəklər. Heyətimiz festivalda Müslüm Maqomayevin "Radio marşı", "Odlar yurdu Azərbaycan", Əlimərdan Əliyevin "Bayramlı Azərbaycan", Üzeyir Hacıbəyovun "Cəngi" musiqilərini ifa edəcək. Həmçinin, orkestrimiz şəhər sakinləri və qonaqlar üçün də bir neçə konsert proqramı təşkil edəcək. Şəhərin mərkəzi meydanlarında baş tutacaq həmin konsertlərdə Fikrət Əmirov, Qara Qarayev, Polad Bülbüloğlu, Tofiq Quliyev, Rauf Hacıyev və digər bəstəkarlarımızın dəyərli musiqi əsərləri və dünya klassiklərinin mahnıları tamaşaçılara təqdim ediləcək.

Polkovnik Etibar Əliyev festivala hazırlıq mərhələsinin uğurla getdiyindən də söz açaraq bildirdi:

- Hazırda festivala hazırlıq mərhələsində, həftədə üç dəfə olmaqla, gərgin məşqlər aparırıq. Bütün məşq prosesini dron və kamera çəkiliş vasitəsilə qeydə alırıq və məşqdən sonra həmin videonu izləyib yol verilmiş nöqsanları aradan qaldırırıq. Məşqlər zamanı Azərbaycan Respublikasının Xalq artisti, tanınmış rəqqas Təranə Muradovanın təcrübələrindən və məsləhətlərindən də bəhrələnirik. Bir sözlə, böyük səylə hazırlaşdığımız bu möhtəşəm və dünyanın ən böyük musiqi festivalından yaxşı nəticə ilə qayıtmağı qarşımıza məqsəd qoymuşuq. Əminik ki, ölkəmizi, ordumuzu, musiqimizi, milli-mənəvi dəyərlərimizi debütantı olduğumuz bu festivalda layiqincə təmsil edəcək və uğurlu nəticə ilə qayıdacağıq. Onu da vurğulayım ki, Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənov hazırlığımız və ehtiyaclarımızla yaxından maraqlanaraq, festivala qatılacaq heyətin təzə formalar və ən müasir musiqi alətləri ilə təmin olunmasına göstəriş verib. Bu addım cənab nazirimizin ordumuzun hər bir şəxsinə diqqət və qayğı göstərdiyinin, sosial təminatlarımızın qaydasında olmasını daim diqqətdə saxladığının bir daha göstəricisidir. Cənab nazirimizin bizə olan bu qayğısı festivala gedəcək heyətin ruh yüksəkliyini daha da artırdı. Yarışqabağı bizə təqdim olunan bu hədiyyələr hər birimizə stimul oldu. Bizə göstərilən bu etimadı doğrultmaq və ölkəmizi layiqincə təmsil etmək üçün hər birimiz əlimizdən gələni edəcəyik.

Orkestrin hərbi dirijoru mayor Fariz Məmmədzadə də fikirlərini bölüşdü. O bildirdi ki, xalqımızın fərqli mədəni dəyərlərini özündə birləşdirən musiqimizdə xalqımızın paklığı, yüksək mənəviyyatı, daxili aləmi, arzuları, ümidləri əks olunur. Zabit qeyd etdi ki, musiqi insanın psixikasına fəal təsir edən incəsənət növüdür, hətta qədim yunanlar musiqini tanrıların töhfəsi kimi qiymətləndirir, ona insanların qəlbini fəth edən ecazkar qüvvə kimi yanaşırdılar. Festival haqqında da təəssüratlarından danışan hərbi-dirijor uzun illərdir "Spasskaya Başnya" Beynəlxalq Hərbi Musiqi festivalına tamaşaçı kimi baxdığını deyib. Hərbi orkestrlərin ifası, iştirakçıların peşəkarlığı, tədbirdəki hər bir detalın musiqiçi kimi onu cəlb etdiyini bildirən mayor F.Məmmədzadə dirijoru olduğu orkestrin qatılacağı builki sözügedən festivalda zəngin repertuarı ilə tamaşaçıları heyran edəcəklərinə çalışacaqlarını vurğuladı.

Məlumat üçün onu da bildirim ki, müxtəlif ölkələrin hərbi musiqi dəstələrinin və rəqs qruplarının iştirak etdiyi və 2009-cu ildən bəri təşkil olunan festivalı ötən il 60 mindən artıq tamaşaçı izləyib. Ümumilikdə internet və televiziya auditoriyasını nəzərə alsaq, 50 milyondan artıq izləyicisi olub. Builki festivalda da böyük izləyici kütləsi gözlənilir.

23 avqustda start götürəcək XII Beynəlxalq Hərbi Musiqi festivalında orkestrlər 70 mindən çox tamaşaçı qarşısında ifalarını səsləndirəcəklər. Eyni zamanda festivalı Rusiyanın birinci kanalı "ORT" canlı olaraq bütün dünyaya yayımlayacaq. Həmçinin, festivalın yayımlanmasına 30-a yaxın televiziya, 60 çap nəşriyyatı və 12 radiostansiya cəlb olunacaq. Dünyanın bir çox ölkələrində festival tam şəkildə yayımlanacaq, kütləvi informasiya vasitələrində süjetlər veriləcəkdir.

Bir zamanlar İkinci Dünya müharibəsində qalib gələn SSRİ qoşunlarının zəfər paradının keçirildiyi, YUNESCO tərəfindən Dünya Mirası siyahısına salınan Qırmızı Meydanda təşkil olunan "Spasskaya Başnya" XII Beynəlxalq Hərbi Musiqi festivalında müstəqil dövlətimizin, qüdrətli ordumuzun təmsil olunacağı hər birimizi qürurlandırır, sevindirir. Bu onun göstəricisidir ki, dövlətimizdə gedən sürətli inkişaf hər sahədə özünü göstərir.

Sonda polkovnik Etibar Əliyev onu da qeyd etdi ki, Azərbaycan Ordusu hərtərəfli inkişaf edir, hərbçilərimiz təlimlərdə, döyüş meydanında qətiyyət, mərdlik, şücaət göstərdiyi kimi, idman, yaradıcılıq, musiqi və digər sahələrdə də ölkəmizi, ordumuzu dünya miqyasında layiqincə təmsil etməyə qadirdir.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nəinki əsgərlərin, hətta zabitlərin də xidmət yerindən qaçması adi hala çevrilib.

Döyüş postunda xidmət edən 6-cı dağ-atıcı alayın hərbi qulluqçusu Cavar Hovhanesyan və leytenant Masis Muradyan xidmətdən yayınmaq məqsədilə hərbi hissəni özbaşına tərk ediblər. Hərbçilərin hansı səbəbdən bu addımı atmaları bilinməsə də, onların axtarışı ilə bağlı hərbi polisə məlumat verilib.

Ermənistan hərbi polisinin xüsusi təyinatlı dəstəsinin əməliyyat müvəkkili Nver Kağramanovun hazırladığı məruzədə deyilir ki, adı çəkilən hərbi qulluqçulardan başqa ön xətt bölmələrdə xidmət etməkdən boyun qaçırmaq məqsədilə dəfələrlə fərarilik edən onlarla zabit və əsgər var. Xidmət yerini özbaşına tərk edənlərin valideynlərindən pul alınaraq, yüngül cəzalar təyin edildiyindən həmin hərbçilər dəfələrlə bu cür hərəkət ediblər.

Əməliyyat müvəkkili N.Kağramanovun məruzəsinə əsasən, faktla bağlı cinayət işi açılıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində baş verən hadisə əsgər valideynlərinin ciddi narazılığına səbəb olub. Hərbi hospitalda müalicə olunan bir neçə əsgərin müalicəsi sona çatmadan onların xidmət etdikləri hərbi hissələrə geri göndərildiyi iddia edilir.

Erməni əsgərlər Qaqik Balayan və Sevak Basinyanın valideynləri övladlarının tam müalicə olunmadan hospitaldan çıxarılmalarına cavab olaraq Ermənistan Müdafiə Nazirliyinə şikayət məktubu ünvanlayıblar.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birinin 3 hərbi qulluqçusu əsgərlər Nareq Keropyan, Qavruş Qarapetyan və kiçik çavuş Artur Sarıbekyan müxtəlif bədən xəsarətləri alaraq, xəstəxanaya yerləşdiriliblər.

Hər 3 əsgərin əslən Ermənistandan olanlarla, qarabağlı erməni hərbi qulluqçular arasında baş verən kütləvi davada xəsarət aldıqları məlum olub. Baş verən hadisə əsgər valideynlərinin narazılığına səbəb olmasın deyə, onları hərbi hissə komandanlığı ilə söhbətə çağırıblar.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə isə müvəffəqiyyətin əsas prinsipi və şərtidir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin İntizam Nizamnaməsindən istifadə etməli, bölmədə hərbi intizamın vəziyyətini və xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**
**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir.**
**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

*Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir*

Azərbaycan Ordusu Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Bu müqəddəs vəzifələri yerinə yetirmək üçün ordumuz daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Ordu Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Hərbi qulluqçular bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət etməlidirlər. Şüurlu hərbi intizam - yüksək döyüş hazırlığı və döyüş qabiliyyəti ordunun əsas şərtidir.

Bununla yanaşı, orduda Hərbi and içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı, məhrumiyyətlərə və çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən, tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Ordusunda hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Ordusunda hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır.

İntizam Nizamnaməsinin 2-ci maddəsi də hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsini tələb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı aşağıdakı kimi müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir."

Hərbi intizam hər bir hərbi qulluqçudan aşağıda göstərilənləri tələb edir:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirməyi, hərbi borcunu yerinə yetirərkən öz qanını və həyatını belə əsirgəməməyi;
- hərbi və dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və dürüst olmağı, hərb işini vicdanla öyrənməyi, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi;
- vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi.

Hər bir hərbi qulluqçu bilməlidir ki, yüksək hərbi intizama nail olmaq olar:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaqla;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur:

- Azərbaycanın mənafeyini qorusun;
- onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin;
- Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi anda müqəddəs və sarsılmaz surətdə riayət etsin;
- intizamlı, vicdanlı, dürüst və cəsarətli olsun; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin.

*Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir*

Döyüş - müharibədə qələbə qazanmağın yeganə vasitəsidir. Döyüşdə düşmənin darmadağın edilməsi və qələbə bütün silah növlərinin güclü zərbələri, zərbələrin nəticələrindən vaxtında istifadə etmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkətləri ilə əldə edilir.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın, zəif icraçılığın, Hərbi andın və müharibə dövrünün qanunlarının tələblərindən geri çəkilməyin qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi aşağıdakılarla bağlıdır:

- hərb işinin inkişaf etməsi, hərbi hissələrin yeni tipli silahlarla və döyüş texnikası ilə təchiz olunması, döyüş aparma üsullarının kökündən dəyişməsi ilə;
- müasir silahların bir çox növlərinin kollektiv surətdə istifadə olunması, həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən çox asılılığı;
- hərbi hissələrin yeni müasir silah növləri ilə təchiz edilməsi, bu silahlardan istifadə etmə üsul və qaydalarının öyrənilməsində mövcud olan çətinliklərlə bağlı gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi ilə.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin bir hissəsi erməni silahlı birləşmələri tərəfindən işğal olundu.

Həmin illərdə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövlət idarəetmə sahəsində səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə və onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli xahişilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə ordumuzun yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ulu Öndər 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Azərbaycan Ordusunun hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində onun dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq və dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Ordusunun gündəlik həyatında hərbi intizamın əhəmiyyəti gündən-günə artır. 2019-cu ilin birinci yarımillik tədris dövrünün yekunları bir daha göstərir ki, möhkəm hərbi intizam və qayda-qanun hərbi hissə və bölmələrdə yüksək döyüş hazırlığının əldə olunmasının əsas şərtidir. İkinci yarımillikdə isə qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün döyüş hazırlığının yüksəldilməsi, öz vəzifə borclarının şüurlu dərk edilməsi və onların vicdanla yerinə yetirilməsi hər bir hərbi qulluqçudan tələb olunur. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

Aprel döyüşləri və Naxçıvan əməliyyatındakı qələbələr Azərbaycan Ordusunun düşmən üzərində böyük zəfərinin başlanğıcı oldu. Əminik ki, ordumuz belə qələbələrlə hələ bizi çox sevindirəcək və ərazi bütövlüyümüz tezliklə bərpa olunacaq!

Ulu öndər Heydər Əliyevin siyasi kursunun davamçısı - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu gün də ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayır. O, öz çıxışlarından birində demişdir: "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Ordumuzun döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amil Azərbaycan Ordusunun yeni müasir texnika və silahlarla təchiz edilməsi, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasıdır. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev əzmi ilə dövlətimizin müdafiə potensialının artırılması və ordumuzun daha da güclənməsi naminə işlər görərək, öz atalıq qayğısını əyani şəkildə nümayiş etdirir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Hərbi hissədə disput*

# “Yaxın vaxtlarda Böyük Qələbədən reportajlar oxuyacağıq”

*Yenə ön xətdə "N" hərbi hissəsində tanıdığımız-tanımadığımız əsgərlərimizin əhatəsindəyik. Tanıdıqlarımızı ki, tanıyırıq, tanımadıqlarımızı da doğmalarımız bilirik. Səmimi görüşdü; belə bənzərsiz bir səmimiyyətin cazibəsində eyni mətləbin - Vətən sevgisinin eyni istəkli tərəfdaşlarıyıq. Belə məqamlara, belə görüşlərə, belə kəlmələşmələrə xalq şairi Zəlimxan Yaqub ömürə yazılan dəqiqələr deyərdi. Ömrümüzə yazılan dəqiqələrin könül xoşluğunu ön xətdə öz başəri dəyərində ifadə etməyə uyarlı söz tapa bilmirəm; təbiətin gözəlliyini əsgərlərdən eşitdiyim gözəl sözlərin gözəlliyi tamamlayır.*





Əsgərlər Hərbi anda sədaqətdən danışdılar:

- Hərbi and hər birimizin hərbi xidmətimizin əsasıdır.

Əsgərlər döyüş əzmindən danışdılar:

- Ali Baş Komandanın döyüş əmrinə hazırıq.

Əsgərlər qələbə ruhundan danışdılar:

- Biz 2016-cı ilin Aprel döyüşlərinin qaliblərinin davamçıları olacağıq.

Əsgərlər torpaqlarımızın işğaldan azad ediləcəyindən - Böyük Qələbədən danışdılar:

- Torpaqlarımız işğaldan tamamilə azad ediləcək, Azərbaycanın sərhədləri daxilində indən belə səngər olmayacaq!

Əsgərlər danışmışdı, biz dinləmişdik...

Dinləyə-dinləyə düşüncələrimizin axarını özünə çəkdi. Əsgərlərin nəsə eşitmək istəyini sezmək çətin deyildi. Bu sezilən istəyin də umacağının Vətənə, dövlətə, dövlətçiliyə ad olası söz olduğunu da sezirdik.

Əsgərlərə xitabən "Azərbaycan Ordusu" qəzeti sizin qəzetinizdi. Dərc edilən məqalələr həm də sizin üçündü. Reportajları, oçerkləri, düşüncələri, informasiyaları sizin zövqünüzcə, könlünüzcə hazırlamaq bizim vəzifə borcumuzdur. Dərc edilən məqalələrin sizin döyüş və mənəvi-psixoloji hazırlığınıza vasitə olmasını təmin etməyə çalışırıq...", - dedim. Həm öz adımdan, həm də həmkarlarımın adından.

Sözdən söz açdım. Söz kəlmədi, söz kəlamdı, söz mətləbdi. Xalq öz varlığını təkcə sıyrılı qılıncıyla deyil, həm də dürüst sözüylə, dürüst sözündə yaşadıb - dedim.

Mən danışırdım, əsgərlər dinləyirdi. Bir azdan əsgərlər danışacaqdı, biz dinləyəcəkdik...

- Hələ qəzet-kitab olmadığı zamanlarda xalq istəyini, diləyini, mətləbini bəngüdaşlara - daş kitabələrə yazırdı, yazılanlar tarixin cığırdaşı olurdu...

Azərbaycanda yazılı ədəbiyyatın tarixi min illərlə səsləşir. Şifahi xalq ədəbiyyatımızın tarixi çox-çox qədimlərlə bağlıdı. Azərbaycanımızda söz (kəlmə) - kəlam, söz - mətləb həmişə ucalıq mərtəbəsində olub, qüdrətini ucalıqlardan göstərib. Zaman-zaman söz nəhəngləri - söz korifeyləri sözü - şeiri həmişə yüksək dəyərləndiriblər. Yaşı min beş yüz illə səsləşən oğuz şeiri - könüllər şeiri, duyğular, düşüncələr şeiri sözü dünyadərkinə üçün vasitə bilib...

Hələ biz danışırdıq, əsgərlər dinləyirdi:

- Söz-kəlam, söz-mətləb qəzetdə daha çevik, daha incə, daha intensiv, daha məhsuldar təsirə malik olub. Yüz illərdi belədi. Milli qəzetçiliyimizin ilkini olan "Əkinçi" də dürüst sözün gücünə istinadən xalqın maarifləndirilməsi missiyasını öz üzərinə götürmüşdü. Mir Cəlal deyirdi: “Biz (yazıçılar - R.H.) hamımız Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxmışıq.” Bu anlamda 144 yaşlı qəzetçiliyimiz, jurnalistikamız "Əkinçi" qəzetinin mənəvi davamçılarıdı. Bu baxımdan Müdafiə Nazirliyinin orqanı olan "Azərbaycan Ordusu" qəzeti də "Əkinçi"nin sələfidi...

"Azərbaycan Ordusu" qəzetində dərc olunan məqalələrin əhatəliyindən, ön xətdən yazılan reportajlardan, ön xətdə jurnalist düşüncələrindən, "Ordu quruculuğu"ndan, "Gənc zabitlərimiz"dən, "Nümunəvi xidmət"dən, "Xidmət dövründə test"dən, "Sərkərdələrimiz"dən,... danışdıq:

- Bunlar Azərbaycan əsgərinin döyüş hazırlığını tamamlayan mənəvi-psixoloji hazırlıq üçündü. "Azərbaycan Ordusu" 2016-cı ilin Aprel döyüşlərində də Azərbaycan əsgərinin yanındaydı. Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımızın əzəmətli qələbə monoloqunu dünyaya ilkin yayanlardan biri də "Azərbaycan Ordusu" oldu. Azərbaycan Ordusunun zabit və əsgərlərinin düşüncələrinin, marağının cəfakeşi olan "Azərbaycan Ordusu" həmişə Azərbaycan əsgərinin sırasında olub - fəaliyyəti, belə demək mümkünsə, əsgəri xidmət olub. "Azərbaycan Ordusu" Aprel döyüşlərindən az sonra döyüşlərdə iştirak etmiş əsgərin ürəyindən keçənləri belə ifadə edirdi:

*Tanrım verən ömür sənindi, Vətən,*
*Sinənə daş dəysə dağ-dağ olaram!*
*İrili-xırdalı yaralarına*
*Sarğı əvəzinə yarpaq olaram!*

Bu xatırlama, xatırlatma əsgərləri duyğulandırdı. Əsgər Nemət Abbasov dedi ki, bu misralar hər bir əsgərin hərbi xidmətinin misralarıdı. Hər birimiz Vətənin müqəddəsliyini bu səviyyədə yaşadırıq...

Hərbçilər danışırdı, biz dinləyirdik.

Baş leytenant Bünyad Əliyev dedi ki, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar Azərbaycan Ordusunun qüdrəti kimi izlənildi. İzləyənlər də, izləməyə macal tapmayıb izləyənlərdən eşidənlər də əmin oldular ki, belə bir ordu torpaqlarını işğaldan azad etməyə qadirdir. "Azərbaycan Ordusu" qəzetində bu paradlar haqqında yazılan fikirlər, əsasən də "Bu parad azərbaycançılığın paradı idi", "Bu parad milli ruhun paradı idi", "Bu parad yaxın gələcəkdə qazanılacaq qələbələrə zəmanət paradı idi" kimi fikirlər hamımızın könlünə yatdı, hamımızın duyğularını coşdurdu. Qəzetdə dərc edilən bir reportaj bizim də əsgərlərimizin döyüş əzmini, qələbə ruhu-nu kükrətdi: "Səngərləri sərhədlərə köçürəcəyik!". Əsgərlərimiz bu reportajı hərbi xidmətin amalına əminliklə oxudular. Bəli, biz Ali Baş Komandanın döyüş əmriylə səngərləri dövlət sərhədlərimizə köçürəcəyik.



Zabit dedi ki, Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində tarixi qələbə qazandı. "Azərbaycan Ordusu" qəzetində istər tarixilik, istərsə də vətənpərvərlik baxımından gərəkli məqalələr də dərc edildi. O döyüşlərin, o qələbənin üçüncü il dönümündə də könlümüzə yatan məqalələr oxuduq. Bu məqalələrin ən böyük dəyəri həmin döyüşlərdə iştirak edənlərin dedikləri əsasında hazırlanmasıydı, yəni, hadisəni döyüşlərin iştirakçıları şərh edirdi. Biz bu məqalələri həm ordumuza, həm də döyüşlərin iştirakçılarına ehtiramlarla oxuduq. İnanırıq ki, "Azərbaycan Ordusu" belə məqalələri müntəzəm dərc edəcək.

Əsgər Azər Qənbərli dedi:

- Hər xalq öz qəhrəmanları ilə qürurlanır. Orta məktəbdə oxuyanda xalq qəhrəmanlarımızı tanıyırdıq, onları sevirdik. Orta məktəbdə oxuyanda indi xalq qəhrəmanlarımızla bir sırada sərkərdələrimizi - Xətaini, Cavad xanı, Mixaylonu, Həzi Aslanovu tanıdıq, sevdik. Sonralar - dövlət müstəqilliyi bərpa olunduqdan sonra Ermənistana qarşı vuruşan, şəhid olan qəhrəmanlarımızı tanımışıq, sevmişik. Onlar haqqında dərc edilən məqalələri böyük maraqla oxuyuruq. Belə məqalələr tanıdığımız qəhrəmanları daha əhatəli tanıdır. "Azərbaycan Ordusu" qəzetində "Milli qəhrəmanlarımız" rubrikası ilə dərc edilən məqalələri də maraqla oxuyuruq.

Əsgər Vasif Əhmədov dedi:

- Uşaqlıqdan şeirə böyük marağım olub. Heca vəznində yazılmış şeirləri daha çox sevirəm. Qəzetinizdə "Könlüm şeir istəyir" rubrikası ilə dərc edilən şeirləri böyük maraqla oxuyuram. Dövlət bayrağına xitabən yazılmış "Bayraq" şeirini heç zaman unutmayacam. Bu şeir hər bir azərbaycanlının şeiridi. Hərbçi gənclərin şeirlərini də dərc etməyinizi istərdik.

Əsgər Ayxan Nağıyev dedi:

- Qəzetinizdə "Ordu və cəmiyyət" rubrikası ilə müsahibələr də dərc edilir. Əməkdaşlarınız redaksiyanızda, əsasən, cəmiyyətdə müəyyən nüfuza malik olanlarla söhbətləşirlər. Müsahibələrin konkret mövzuya həsr olunması daha səmərəli olardı. Vətənpərvərlik, qəhrəmanlıq, şəhidlik və c. kimi mövzular ordu-cəmiyyət münasibətini daha yüksək səviyyəyə çatdırar.

Əsgər Balakişi Cəfərov dedi:

- Bəzi məqalələri illüstrasiya ilə verirdiniz. Bu, həm məqalənin məzmununun dərkini asanlaşdırır, həm də ona gözəllik verir.

- Yəni, tərtibatı gözəlləşdirir, - əsgər Vasif Şıxəlizadə Balakişinin fikrini belə tamamladı.

Hər iki əsgərin dedikləri mənə könül xoşluğu verir: oxucu qəzetçiliyin bəzi məqamlarını standartlardan ayıra bilir. Belə düşünən əsgərlərin bədii zövqü dünyagörüşünün formalaşmasında müəyyən əhəmiyyətə malik olur. Bu qeyd-fikir "Azərbaycan Ordusu"nun fəaliyyətinə estetik biçim verə biləsi qeyd-fikir kimi dəyərlidir; əsgər Azərbaycan Ordusunun "Azərbaycan Ordusu"nu müasir qəzetçilik baxımından nöqsansız görmək istəyir...

Əsgər İlkin Hüseynov dedi:

- İdmançı olmasam da, idman həvəskarıyam. "Azərbaycan Ordusu" qəzetində ordumuzun idman həyatından da məlumatlar verilir, dünya idmanı haqqında da. Hərbçi idmançılarımız beynəlxalq yarışlarda kifayət qədər uğurla çıxış edirlər. Həmin yarışlar haqqında daha geniş məlumatlar almaq, hərbçi idmançılarımızı daha yaxından tanımaq istəyirik.

Əsgər Balakişi Cəfərovun dediklərini mahiyyət baxımdan yeni yanaşma bildik.

- Qəzetimizdə dərc edilən məqalələrin hamısı gərəklidir. Biz "Əsgərin tribunası", "Nümunəvi xidmət" rubrikası ilə dərc olunan məqalələri də maraqla oxuyuruq. Bilirik ki, əməkdaşlarınız hərbi hissələrdə ezamiyyətdə olanda komandirlərin, zabitlərin təqdimatıyla əsgər haqqında məqalə hazırlayırlar. Çox istərdim ki, belə məqalələri əməkdaşlarınızın köməyiylə əsgər hazırlayaydı. Onda həm məqalə xeyli səmimiləşərdi, həm də əsgər dostluğu daha da möhkəmlənərdi.

- Hərbi xidmətin hər günü yaddaqalandır. Ön xətdə xidmətin məsuliyyəti də, qüruru da bir qədər fərqlidir. Ön xətdən yazılar dərc olunur. Ön xətdə xidmət edən əsgərin bir günü haqqında ayrıca məqalə dərc olunmasını da istərdik. Bu, həm əsgərlər, həm də ictimaiyyət üçün maraqlı və gərəkli olardı, - əsgər İlkin Hüseynov belə dedi...

Azərbaycan Ordusunun "Azərbaycan Ordusu" bundan sonra da hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə istiqamətlənmiş yazılar dərc edəcəkdir...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## Könlüm şeir istəyir

# “Öyrətmə özünə, öyrətmə məni”

*Bu şeir xalq şairi Musa Yaqubun şeiridi. Məzmunu poetikası ilə gözəl tamamlanan bu şeir həm duyğular üçündü, həm də düşünəcələr üçün. Bu şeir böyük Nizaminin "Eşqidir mehrabı uca göylərin" misrasının mənəvi zərrəsidi və bu səbəbdən oxuyanın könlünə yatır. Şairin təbiət şeirləri də, sevgi şeirləri də həmişə sevgilərlə oxunur. Belə şeirlər əbədiyyətin çığırdaşıdı...*

**"Azərbaycan Ordusu"**

### Payız günüm

Bir sarı budaqdır il ağacında
Görən bu payızın yaşı neçədir? -
Bir qıvrım duman da qalıb solanda,
Yaddaşı necədi, huşu necədi -
Sarıköynəkləri dözmədi qaçdı;
Amma həmin torpaq, həmin ağacdı,
Qüdrəti qalıbmı bir gül bitirsin,
Ya bir xəzəlini yerdən götürsün.
Bir dilim yemişi aypara bilsin
Bir quşu yolundan qaytara bilsin -
Çağırsın geriyə şirin dilləri,
Əlini uzatsa qış tərəflərə
İsidə bilərmi soyuq əlləri?..
Görəsən payızın yaşı neçədi?..
Həvəsi qalıbmı kef-damaq üçün
Sevdası ya oğlan, ya qız olarmı?
Sahibsiz yurd-yuva qorumaq üçün
Əsgərlik yaşında payız olarmı,
Görəsən payızın yaşı neçədi?..
Yenə yerişim var küçələrində
Hasarda sarmaşıq yaman üşünür.
Görəsən ukuzun gecələrində
Nələrə səbr edir, nəyi düşünür -
Görəsən payızın yaşı neçədi?..
Qalmışam həvəslə yaş qınağında,
Bu qızıl yarpağın alnından öpüm
Qızıləhmədinin al yanağında
Bir ləzzət qalıbmı xalından öpüm,
Görən bu payızın yaşı neçədi?..
Mizrab xəzəlləri qırışlarıyla
Toxunub bir sarı simə ağlayır.
Bu qədər aramsız yağışlarıyla
Görəsən bu payız kimə ağlayır?..
Dumanlar yeriyir dərələr boyu
Dağlar elə bil ki, qoşun aparır
Deyəsən bu payız vaxt sahibidi
Məni də özünə qoşub aparır.
Görən bu payızın yaşı neçədi?..

### Taleyin qisməti

Taleyin qisməti rast saldı bizi.
Yolumuz haradasa qırılacaqsa,
İtirəcəyiksə, bir-birimizi,
Xatirəm yadında qalmayacaqsa,
Bu əllər mənimki olmayacaqsa,
Bu tellər mənimki olmayacaqsa,
Gəl məni, özünə öyrətmə məni,
Hicran qorxusuyla göynətmə məni.
Əlimi saçıma öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə,
Üzümü üzünə öyrətmə belə,
Mən bir az baharlı budaq kimiyəm,
Bir az da sadəlövh uşaq kimiyəm.
Bala atasına qovuşan kimi,
Leylək yuvasına yovuşan kimi,
Arı gül-çiçəyə uyuşan kimi,
Eh, mən də adama tez yovuşanam,
Sevgi atəşində tez alışanam.
Amma ki, sönməyim çox çətin olur,
Sevgidən dönməyim çox çətin olur,
Öyrətmə özünə, öyrətmə məni.
Bəlkə gözləmirdik bu xoş görüşü,
Yaman qəribədir dünyanın işi;
Heç vaxt yollarında dayanmadığın,
Heç həndəvərində dolanmadığın
Gəlib birdən sənə nə şirin olur!
Ömrünün içində ömür doğulur.
Bu şirinim acı olacaq isə,
Bir qismət çiçəyim solacaq isə,
Öyrətmə özünə, öyrətmə məni.
Könlümdə yerin var, qopmaz yerindən,
Bir əkiz ləçəyi, haça budağı
Ayırmaq olmursa biri-birindən,
Məni də ayırmaq çətindir, axı
Öyrətmə özünə, öyrətmə məni.
Yox buna taqətim, yox buna tabım,
Əlimi əlindən üzmək əzabım,
Sonra bu əzaba dözmək əzabım…
Yoxsa da, könlümün sınıqları var-
Hicranın köz basmış yanıqları var
Mənim dərdlərimin ayaqları var-
Harda olsa, gəlib tapacaq məni.
Yaxıb yandıracaq bu ocaq səni
Gəl məni özünə öyrətmə belə,
Əlimi əlinə öyrətmə belə,
Gözümü gözünə öyrətmə belə…

### Mənim ümid şeirim

Sən o biganəni alma eyninə,
Demə ki, yox məni bir duyan kəsim.
Mən bir ümid şeiri yazıram sənə,
Bu ümid şeirimi oxu, əzizim.

Gözündə izi yox kinin, yalanın…
Bircə baxışından nurlanar günüm.
Bəs belə ilahi gözü olanın
Ümidi olmazmı, gözünə dönüm?

Mənimçün ucasan bir zirvə kimi,
Sən kimin yerini uca bilərsən?
Göyərçin əllərin ümid deyilmi?
Elə bu qanadla uça bilərsən.

Lap deyək tək çiçək yaylaqda qərib,
Yox bir oxşayanı, məhəl qoyanı.
O, elə ümiddir, dünyaya gəlib,
Baharlar ömrüdür, torpaq həyanı.

Bir tər çiçəyisən bizim çəmənin,
Gizlən, bənövşə ol - nəzərdə varsan.
Qapına ümidə gəlirik sənin,
Sən ümid qapını harda ararsan?

Ərit ürəyində, ərit o buzu,
Bənövşəm, yaza bax, başını qaldır.
Göylərin ən uzaq ümid ulduzu
Ovcunun içində yansa - xəyaldır.

Elə boş xəyalı alma eynənə,
Könlündə tel olub titrəsin səsim.
Mən bir ümid şeiri yazıram sənə,
Bu ümid şeirimi oxu, əzizim…

### O nə baxış idi

Tanrım, bir baxışda nələr var imiş,
Nəzərdə neçə cür nəzər var imiş.
Vallah ani oldu, qəfil, çox ani
O nə baxış idi gözün qurbanı!

Mən düşdüm tilsimə, sehrə bilmədim,
Baxışına cavab verə bilmədim.
Söz işi deyildi sözümlə deyim,
Döz işi deyildi dözümlə deyim.

Bəlkə əfsanəymiş, bəlkə nağılmış,
Qəfil şimşək idi daşa çaxılmış -
İşığı gözümdə, çatı sinəmdə
Çatıb yangı-yanğı yatdı sinəmdə.

Bir məqam olmadı qayıdım baxım,
Sevgi hisslərimi ayıldım baxım.
Bəlkə də ikinci həyat kimiydi, -
Pərvanə çəkirdi çırağa məni
Qayıdıb gördüm ki, çırağım yoxdu,
Yerimək istədim ayağım yoxdu.

Mən yerdən yuxarı, göy aşağıydı,
Bəlkə halə-halə göy qurşağıydı -
Hər rəngi yerində tuta bilmədim, -
Həmin o rəng ilə, həmin naxışla
Mən baxa bilmədim, məni bağışla!

O hansı qürubun naxışlarıydı,
O hansı Mələyin baxışlarıydı?..
Mənim ürəyimə, mənim şeirimə
O hansı sevginin alqışlarıydı?..

Mən düşdüm tilsimə, sehrə bilmədim,
Baxışına cavab verə bilmədim
Bəlkə gözlərini gözüm tutmadı
Yerimək istədim dizim tutmadı.

Əlimi üzümə çəkirəm hərdən
Bir görüm nə qalıb o od nəzərdən.

Həmin şimşək vuran qarağac kimi
Yonulub qalmışam, yanıb qalmışam,
Bəlkə ağac-heykəl olub qalmışam -
"Atdı müjgan oxun dəydi sinəmdən"
O müjgan oxunu alıb qalmışam.

Vallah ani oldu, qəfil, çox ani
Sən hardan gəlirdin, hara getmisən,
Mən burda neyləyim, gözün qurbanı?

### Qış gəlir

Xırdaca budaqlar qırov bağladı,
Hər ağac başına bir cuna düşdü.
Keçdi ildırımdan gümüş dolular
Yerdə xəzəllərin ovcuna düşdü.

Dərənin dibini sel-su xışladı,
Bir keçəl təpəni dolu daşladı.
Qış da ilk dərsinə belə başladı,
Bir yaşıl səltənət çovğuna düşdü.

Qırov çəmənlərdən rəngi ovladı,
Alıb sarmaşığı buz buxovladı.
Külək yumruladı, tufan qovladı
Qışın ilk qəzəbi yulğuna düşdü.

Vaxt vardı kirşəmiz döşdə çapardı,
Yerdəki qarı da göydə qapardı.
Bir az gücüm vardı payız apardı
Qışımız bir ömrü yorğuna düşdü.

### Hələ ki...

Elə hələ deyib hələ dözürük,
Hələ ki, hələnin hələsiyəm mən.
Nə sərhəd tanımaz aşiq Kərəməm,
Nə də xan oğlunun Lələsiyəm mən.

Nahaqlar önündə neçin kiridim,
Qal bu xəcalətdə ağız kilidim,
Guya bu dünyada neyləyə bildim,
Deyim ki, təzədən gələsiyəm mən.

Bekar əl neçin də sözümə baxsın,
Əlimin üzü yox üzümə baxsın.
O hansı ümiddir bizi çağırsın,
Durub arxasınca tələsiyəm mən.

Dayan, durum gedim bazarımgilə,
Dünya bolluğuna ərkim bir gilə.
Qalmışam özümə lap gülə-gülə,
Elə gülə-gülə öləsiyəm mən.

Kimlərə borcum var, dolub siyahı,
Vura bilmədiyim hədəf günahı -
Kəsib barmağımı verib silahı,
Bir namərd dünyanın köləsiyəm mən.

# İdman

## “Universiada-2019”: Azərbaycan nümayəndə heyətinin şərəfinə bayraqqaldırma mərasimi keçirilib



İtaliyanın Neapol şəhərində tələbələr arasında XXX Ümumdünya Yay Universiadası çərçivəsində Azərbaycan nümayəndə heyətinin şərəfinə bayraqqaldırma mərasimi olub. Tədbir "Atletlər Kəndi"ndə baş tutub.

Qeyd edək ki, bu gün universiadanın rəsmi açılış mərasimi keçiriləcək. Tədbir "Napoli" futbol klubunun stadionu olan "San Paolo"da saat 23:00-da baş tutacaq. Açılış mərasimində Azərbaycan komandasının bayraqdarı Murad Fətiyev olacaq.

Universiada çərçivəsində artıq su polosu, futbol və suya tullanma yarışlarında mübarizə başlayıb. Turnirdə atletlər, həmçinin basketbol, voleybol, cüdo, atletika, stolüstü tennis, üzgüçülük, idman gimnastikası, kamandan oxatma, tennis, taekvondo, qılıncoynatma, bədii gimnastika, atıcılıq, reqbi-7 idman növləri üzrə də güclərini sınayacaqlar. İyulun 14-dək davam edəcək yarışlarda 18 idman növü üzrə 112 ölkədən 6 minə yaxın idmançı mübarizə aparacaq. Yarışda ölkəmizi bədii gimnastika, idman gimnastikası, cüdo, taekvondo, atletika, qılıncoynatma üzrə 22 idmançı təmsil edəcək.

## Paralimpiyaçılarımız Tunisdə keçirilən Qran-Pridə 6 qızıl medal qazanıblar

Paraatletika üzrə Azərbaycan milli komandası Tunisdə keçirilən beynəlxalq Qran-Pri turnirində uğurlu çıxışını davam etdirir.

Daha üç idmançımız fəxri kürsünün birinci pilləsində qərarlaşıb. T12 kateqoriyasında uzunluğa tullanma üzrə qadınların yarışında Yelena Çebanu 5,21 metrlik nəticə ilə yarışların qızıl medalına layiq görülüb. Kişilər arasında uzunluğa tullanma yarışında (T11) Elçin Muradov 6,48 metrlik nəticə ilə birinci yeri təmin edib. Qadınlar arasında 200 metr məsafəyə qaçış yarışında (T12) idmançımız Y.Çebanu 24,99 saniyə nəticə ilə Qran-Prinin qalibi adını qazanıb.

Digər idmançılarımızdan nizəatma yarışlarında Elvin Astanov 20,08 metrlik nəticə ilə ikinci yeri tutub. Sprint qaçışı yarışında (T11) 200 metr məsafəni 24,98 saniyəyə qət edən Nurlan İbrahimov da gümüş medala layiq görülüb. Daha bir gümüş medalı isə uzunluğa tullanma yarışında (T12) 6,80 metrlik nəticə göstərən Səid Nəcəfzadə ölkəmizin aktivinə yazdırıb.

Xatırladaq ki, bundan əvvəl idmançılarımız 3 qızıl, 3 gümüş, 1 bürünc medal qazanıblar. Beləliklə, paralimpiyaçılarımızın qazandıqları medalların sayı 13-ə (6 qızıl, 6 gümüş, 1 bürünc medal) çatıb.

## Stolüstü tennisçilərimiz Avropa birinciliyində mübarizə aparacaqlar



İyulun 7-də Çexiyada stolüstü tennis üzrə gənclər arasında Avropa birinciliyi start götürəcək.

Azərbaycan Stolüstü Tennis Federasiyasından verilən məlumata görə Azərbaycanı qitə birinciliyində oğlanlar arasında beş idmançı təmsil edəcək. Yarışlara iyulun 16-da yekun vurulacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Camalov Habil Sabir oğluna verilmiş Qarabağ muharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 523
Nüsxə 3950